# Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsi

*Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin əməkdaşları* 2018-ci ildə 3 kitab, 1 monoqrafiya, məcmuələrdə 18, qəzetlərdə 20 məqalə və 7 tezis çap etdirib. O cümlədən şöbə əməkdaşlarının xarici mətbuatda 3 məqaləsi, 4 tezisi, impakt faktorlu jurnalda isə 1 məqaləsi nəşr olunub. İki tərcümə işi yerinə yetirilib. Ümumən nəzərə aldıqda əməkdaşların çap məhsullarının ümumi sayı 48, kitabların sayı 2, monoqrafiyalarının sayı 1, tezislərin sayı 7, məqalələrin sayı 38, xaricdə məqalələrin sayı 3, tezislərin sayı 2, impakt faktorlu jurnallarda məqalələrin sayı 1 olub.

Şöbədə elmi-tədqiqat işləri 2 problem, 2 mövzu üzrə aparılmış, 10 iş yerinə yetirilmiş, 10 mərhələdə nəticələr əldə olunmuş, 8 iş tamamlanmışdır.

Şöbə əməkdaşları Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncəmları ilə bağlı "Akademik Məmməd Cəfər Cəfərov: Böyük ömrün anları və addımları", "Mir Cəlal-100", "Mikayıl Müşfiq-110", "Məsud Əlioğlu-90", "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu-85", "Azərbaycan Xalq Cümhuriyyəti-100" və s. sessiya, konfrans və digər tədbirlərin keçirilməsində iştirak edib və Asiya xalqları ədəbiyyatına dair 10 seminar keçirib. Onlar 2018-ci ildə bir çox Beynəlxalq və Respulika elmi konfrans, simpozium və sessiyalarda məruzə və çıxışlar edib.

Şöbənin müdiri, *f.e.d., prof. Bədirxan Əhmədov* 6 yerli və beynəlxalq tədbirdə iştirak edib. Hindistanın Quvahati Universitetinin keçirdiyi konfransda "Rabindranat Taqor Azərbaycan ədəbi elmi mühitində" mövzusunda məruzə edib.

Türkiyənin Anadolu Universitetinin ev sahibliyində Əskişehir Azərbaycanlılar Dərnəyi və Türk Dünyası Uyğulama və Araşdırma Mərkəzinin birgə keçirdiyi "100-cü ilində Azərbaycan Cümhuriyyəti" Uluslararası Konqresində "Cümhuriyyətin üçlü formulu: türkləşmək, müasirləşmək, islamlaşmaq" adlı məruzə ilə çıxış edib. Çinin Pekin şəhərində keçirilən Çin forumunda "Kitabi-Dədə Qorqud" mədəniyyətlərarası dialoqun əsas faktoru kimi" mövzusunda məruzə edib. Bakıda görkəmli yazıçı Mir Cəlalla bağlı keçirilmiş konfransda "Mir Cəlal nəsrində bədii yumor" adlı məruzə edib. "Böyük İpək yolunda Azərbaycan-Çin ədəbi əlaqələri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi seminarın materiallarında "Azərbaycan bədii düşüncəsində ipək yolu izləri" məqaləsi çap edilib (Bakı, 02-04 oktyabr 2017. Bakı, "Avropa", 2018, s.22-31). Azərbaycan Universiteti Cümhuriyyət ideologiyası kontekstində filologiya elmi mövzusunda respublika elmi konfransının materiallarında "Cumhuriyyətin üçlü formulu: türkləşmək, müasirləşmək, islamlaşmaq" məqaləsi çap edilib (6 aprel 2018, s.5-20).

*F.ü.f.d. Bəsirə Əzizəliyeva* Budapeşt və İstanbulda məruzələrlə çıxış edib (Problem of national self-identification and "Stranger" in literature of immigration. İnternational Congress on Afro Eurasian Research IV. Aprel 27-29, 2018 Budapeşt, Abstracts book, p.83; "Muhammed

İkbal`in “Cavidname” Eserinde Türk, İslam ve Bati Görüşleri. Uluslararası Yönetim ve Sosyal Araşdırmalar Sempozyumu (Uluslararası Yönetim ve Sosyal Araşdırmalar Dergisinin ev sahibliyi, University of Central Florida, Jalal-Abad State University ve University of Abujanın dəstəyi ilə İstanbul, 2018).

*Leyla Həsənzadə* 2 beynəlxalq konfransda ( “Q.E.Lessinq və onun “Müdrik Natan” mənzum dramının Azərbaycan dilinə tərcüməsində fərdi və milli özünəməxsusluq problemi”. Ümumimilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönününə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi konfransı”, 27-28 aprel 2018, s.442-448; Azərbaycan, Alman səyyahları Şirvanın tarixi haqqında”. Müasir Azərbaycan tarixi Şirvanşahlar dövlətinə səyahət. Beynəlxalq elmi konfransın materialları. 23-24 oktyabr, s.726-732), *Gülnar Yunusova* 2 beynəlxalq konfransda (“Yapon ədəbiyyatının görkəmli nümayəndəsi Haruki Murakaminin həyatı və dövrü”. Ümumimilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı, 27-28 aprel, 2018, s.442-448; “Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında Yaponiya mövzusu”. Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk parlamentli respublika” mövzusunda beynəlxalq elmi konfrans. 21-23 may 2018, s.13), *Leyla Ramazanova* 2 konfransda( “Gi de Mopassanın həyat və yaradıcılığı Azərbaycan filoloji fikrində”. Gənc tədqiqatçıların II Beynəlxalq konfransı. Bakı, 27-28 aprel 2018, s.1258-1260; “ Bakı Norveç yazıçısının əsərində (K.Hamsunun “Nağıllar ölkəsində” oçerki əsasında). Azərbaycanşünaslığın aktual problemləri XI Beynəlxalq elmi konfransın materialları. Bakı, 3-4 may 2018 2018, s.509-511.), *Nərgiz Kərimova* 1 elmi konfransda (“İlin arxetipinin Azərbaycan və Çin ədəbiyyatında təzahürü. IV Beynəlxalq Türk Kültür Coğrafiyasında Elm və Sosial Bilimler Simpoziyumu. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş konfrans. 27-30 iyun 2018. Bakı) iştirak və çıxış edib.

Şöbə 2 problem: “Asiya xalqları ədəbiyyatı və ədəbi əlaqələr”, “Asiya xalqları ədəbiyyatı: mərhələləri, problemləri, şəxsiyyətləri” və 2 mövzu (“Asiya xalqları ədəbiyyatının inkişaf meyilləri, Azərbaycan-Asiya ədəbi əlaqələri”) üzrə elmi tədqiqat aparıb. 10 tədqiqat işindən 8-i cari ildə tamamlanıb, 2-si davam etdirilir.

2018-ci ildə şöbənin elmi-nəzəri seminarında bir sıra məruzə dinlənilib (*B.Əhmədov* “R.Taqor poeziyasında milli azadlıq problemi; *B.Əzizəliyeva* “M.İqbalın “Cavidnamə” əsərinin ideya xüsusiyyətləri; *Şəhla Qurbanova* “Əfqan ədəbiyyatı müasir dövrdə”, *Leyla Həsənzadə* “Müasir Koreya ədəbiyyatı; *Gülnar Yunusova* “Müstəqillik dövrü Azərbaycan-yapon ədəbi əlaqələrində bədii tərcümə məsələləri; *Sevda Məmmədova* “Vyetnam ədəbiyyatında müharibə mövzusu”; *Sübhan Məmmədov* “Şahnun Əhmədin həyat və yaradıcılığı”; *Leyla Ramazanova* “Müasir İndoneziya ədəbiyyatının görkəmli nümayəndələri”; *Nərgiz Kərimova* “Azərbaycan bədii ədəbiyyatı Çin dilində”, *Lamiyə Nəsirova* “Monqolustan ədəbiyyatı və monqol ədəbiyyatının Azərbaycanda öyrənilməsi”).

Cari ildə *Bəsirə Əzizəliyevanın* “Vladimir Nabokovun Amerika dövrü romanları (B., “Mütərcim”, 2018, 132 s.), *Şəhla Qurbanovanın* “XX əsr Amerika ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığında” (B., Elm və təhsil”, 2018, 222 s.) monoqrafiyaları çap olunub. *B.Əzizəliyeva* 2 kitab (Muhsin Kadıoğlu. Besire Azizali. Bakı Gezi Rehberi” (2018, 187 s.); Muhsin Kadioğlu. Besire Azizali. Baku Travel Guide, E-pub book (2018, 325 s.) elektron kitablarını çap etdirib. *Prof. B.Əhmədov, dos. B.Əzizəliyeva* Hindistan, Türkiyə, Macarıstanda keçirilmiş konfranslardakı məruzələrə görə sertifikatlara layiq görülüb.

*B.Əzizəliyevanın* cari ildə 3 məqaləsi xaricdə çap olunub (Cibran Halil Cibran`ın “Deli” ve “Gezgin” kitablarında toplanmış eserlerde kadın konusu. Eurasian Academy of Sciences Social

Sciences Journal, Volume: 18, 2018, s.7-13; Cibran Halil Cibran`ın "Peyğember" eserinin Türkiye Türkçesine çevrisi. Akademik Tarih ve Düşünce Dergisi, İlkbahar 2018, 5(14), s.120-130, ISSN: 2148-2292, İmpact Faktor; Muhammed İkbal`in "Cavidname" Adli Eserinde Türk Sadrazami Said Halim Paşa. Türk Dünyası Araşdırmaları Dergisi, Eylül-Ekim, Cilt 120, sayı:236, s.11-32.)

*B.Əzizəliyeva* 20 fevral 2018-ci ildə "XX əsrin birinci yarısında ABŞ-da ingilisdilli ərəb və rus mühacirət ədəbiyyatı" mövzusunda elmlər doktorluğu dissertasiyası müdafiə edib. *Leyla Ramazanovanın* 6 iyun 2018-ci ildə "XX əsrin birinci yarısında Azərbaycan filoloji fikrində Avropa ədəbiyyatı məsələləri" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasının müzakirəsi keçirilib.

Hazırladı: ***Əlizadə Əsgərli***

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor

***Bədirxan Əhmədov***

Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müddiri, filologiya elmləri doktoru, professor